AZƏRBAYCAN ORDUSU

*Düşüncələr*

# "Çingiz sıramızdadı"

...Sizinlə bu günlərdə xidmət etdiyiniz postda görüşdük. Ayrılarkən dediklərinizi unutmamışam: "...Çingiz sıramızdadı...".

Azərbaycanın əbədiyyət əsgəri sizdən sonra xidmət edəcək əsgərlərin də sırasında olacaq, dövlət sərhədlərimiz Vətənin istəyiycə qorunacaq, "Vətənin əsən yeli, daşan seli, açan gülü ilə Vətənləşən" əsgərlərimiz! Ay sizin kirpiklərinizdə gecələyirsə, Günəş sizin gözlərinizdən doğursa, məmləkətimiz dünyaya sizin gözlərinizlə baxırsa, bulaqlar ruhunuzun laylası olsun deyə axırsa, şimşək sizə görə çaxırsa, qələbə günü uzaqda deyil.



Siz "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır!" - inamıyla döyüş növbəsindəsiniz.

Orada Çingiz Qurbanovun atasının dediklərini mən də eşitdim, siz də eşitdiniz. "Oğlumun əvəzindən xidmət etmək istərdim!" Ataların şəhid oğullarını əvəz etməsinə ehtiyac yoxdu - siz varsınız. Aprel zəfərini qazananların davamçılarısınız! Belə bir mövqedə, belə bir postda xidmət edirsiniz. Dediyiniz kəlmələr ürəyimi telləndirdi: Qələbə qazanılacaq. Kaş o qələbəni əsgər kimi yaşayaq...

Uzaq tarixi xatırlayaq: sərhədlərimizdə yağı boyu görünəndə, sərhədlərimizə yağı nəfəsi dəyəndə kəhər atlarımız kişnəyərdi, qılınclar sıyrılardı. O çağlarda döyüşçü qılınca, qılınc Vətənə güvənərdi. Bu güvənc ilahi güvənciydi...

Ovxarlı qılıncların parıltısı yağıların gözlərini qamaşdırardı. Əsən yellər, daşan sellər səmtini dəyişərdi. Yağılaşanların gözlərini tökən, qollarını üzən, başını kəsən qılınclar tarix yazardı. Yazılan tarixlər daş kitabələrdə yaşadılardı. "Qəhrəmanı", "Cəngi" havaları o illərdə yaranıb bəlkə? Bu havaları ruhumuza hopduran gözəlim sözlərin ilahi düzümünün yaşı o illərdənmi başlayır, görəsən?

Atları kişnəməyən, qılıncı kəsərdən düşən xalqlar tarixdən silindi...

Yaxın tarixi xatırlayaq: qılınc getdi, ərənlik bitmədi. Döyüş-döyüş dövlət quruldu, dövlətçilik döyüş-döyüş qorundu, qorunan dövlət şəhid-şəhid yaşadıldı. Söz saza ruh əvəziydi, saz qılınca, qılınc Vətənə. Sazın kəsəri sözüydü, qılıncın kəsəri saz. Qılıncın kəsəri Vətənin kəsəriydi...

Qılınc döyüşçüdən, döyüşçü Vətəndən güc alırdı.

Zamanın siyasət yelləri hərdən tərsinə əssə də, hərdən dövlətin tarixə bağlılıq tellərindən kəssə də, dövlətçiliyimiz qorundu. Məqamında "hər daşı alov dilli oxa dönən" (M.Araz) Azərbaycan tarixdə qaldı, tarixə yük olmadı, tarixə yük olmaq istəyənləri taxtından saldı; zaman vaxta da hökm elədi, "Mənəm!" - deyən baxta da, qondarılan taxta da.

1828-də bir dəli rüzgar əsdi...

Xalq 1918-də rüzgarın qanadlarını qırdı...

1920-də ayrı biçim rüzgar əsdi...

1991-də Azərbaycan "Mən varam!" - dedi...

Həmin illərdə nədən başladığı - bəlli, kimə (kimlərə) güvəndiyi - bəlli. Ermənilik tərpəndi, erməniliklə qoşa işğal qımıldandı. Torpaqlarımızın 20 faizi işğal olundu...

O torpaqları siz azad edəcəksiniz! Onda Çingizlərin ruhu sizə alqışçı olacaq!

2016-nın aprelində erməniliyin bir gözü ovuldu, bir qolu kəsildi. Ermənilik Azərbaycan əsgərinin qüdrətini gördü, cəsarətini, ruhunun çılğınlığını gördü. Dərk etdi ki, torpaqsevərlik işğalçılığı diz çökdürəcək. Min illər, yüz illər əvvəl qılıncın dediyini güllələr deyəcək. Mübarizləşin, Muradlaşın, Samidləşin, Çingizləşin,... işğalda qalan bütün təpələri Lələtəpələşdirin, Bayraqtəpələşdirin. Murovun o üzünə bu üzünün rəngini çəkin, ...

Böyük Qələbə sizin də boynunuzun borcudu, bizim də!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**